**“Dövlət idarəçiliyi”.**-2013.-№ 4 (44).-S.165-170.

## BEYNƏLXALQ HÜQUQ

**Hikmət Nağdəliyev**

***Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının Hüquq kafedrasının aspirantı, Rusiyanın rbaycan Gənclər Təşkilatının idarə heyətinin üzvü, Vestminster Universitetinin Avropa hüququ üzrə magistri (London, yük Britaniya)***

## EKSTRADİSİYA İNSTİTUTU: ÖLKƏLƏRİN BEYNƏLXALQ HÜQUQ ƏMƏKDAŞLIĞININ NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏRİ

XXI əsrə qədəm qoymuş dünya birliyi təhlükəsizliyin yeni problemlərinə aid edilən beynəlxalq cinayətkarlıq və rorçuluq, ekstremizm, qanunsuz miqrasiya, narkotiklərin yayılması və sair təhlükələrlə üzləşir. Belə bir şəraitdə dövlətlərin rnəlxalq əməkdaşlığında prioritet kimi hüquqi əsasların möhkəmləndirilməsi çıxış edir.

Transmilli xarakterə malik olan müasir təhlükə və çağırışlar həm beynəlxalq təhlükəsizliyə, həm də ayrı-ayrı ölkələrin ili təhlükəsizliyinə təsir göstərir. Bu əsnada beynəlxalq terrorçuluq nümunələri kimi, münaqişə potensialının artmasını və mai həyatın müxtəlif aspektlərini əhatə etməsini qeyd etmək olar. Terrorçuluq fəaliyyətinin qlobal təhlükəsizliyə və ayrı-ayrı vlətlərin milli təhlükəsizliyinə təhdidləri onun mütəşəkkilliyi, ölkə daxilində və xaricində inkişaf etmiş infrastruktura malik rorçu qruplaşmaların yaradılması, terrorçu qruplaşmaların və mütəşəkkil cinayətkarlığın qarşılıqlı əlaqəsinin güclənməsi densiyası ilə əlaqədardır.

Cinayətlərin artımından irəli gələn təhlükələrin kəskinliyini və miqyasını nəzərə alaraq, onlarla mübarizə üzrə səmərəli birlərin işlənməsi üçün dövlətlərin və beynəlxalq təşkilatların uzlaşdırılmış fəaliyyəti tələb olunur. Dünya təcrübəsi göstərir cinayətlərin transmilliləşməsi nəticəsində cinayət fəaliyyətinin bir çox ölkələrin maraqlarına toxunan və cinayətlərin aqlanması, qarşısının alınması, açılması, onların törədilməsində təqsirli bilinən şəxslərin cəzalandırılması üzrə tədbirlərin ülməsi məqsədilə onların əməkdaşlığını tələb edən yeni forma və üsulları əmələ gəlir.

Bu baxımdan, cinayətkarlığın qarşısının alınmasının mövcud beynəlxalq hüquq alətlərindən olan verilmə (ekstradisiya) titutu daha böyük aktuallıq kəsb etməkdədir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş (8 tyabr 2006-cı il) «Birləşmiş Millətlər Təşkilatının qlobal kontr-terrorçuluq strategiyası»nda ekstradisiya dövlətlərin cinayət - uqi məsələlər üzrə əməkdaşlıq mexanizmlərinin mərkəzi elementlərindən biri kimi qəbul olunur.

Cinayət törədən şəxslərin təhvil verilməsi üzrə praktik tədbirlərin reallaşmasında həm beynəlxalq hüquq, həm də milli uq sistemi üçün mühüm əhəmiyyət kəsb edən beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı fəaliyyəti problemi əyyənedici rola malikdir. İ.İ.Lukaşuk «indiki dövrümüzdə hüquqi sistem daxil olmaqla, cəmiyyətin beynəlmiləlləşməsi aitində ölkənin hüquq sisteminin beynəlxalq hüquq və digər ölkələrin hüquq sistemləri ilə optimal qarşılıqlı fəaliyyətinin nin edilməsi vacibdir» fikrinə diqqət yönəldir [1].

Verilmə institutunun reallaşmasının praktik aspektlərinin tədqiqi məqsədi ilə bu məsələ nəzəri-metodoloji xarakter daşıyır beynəlxalq hüquq elminə ümumi doctrinal yanaşmalar xaricində nəzərdən keçirilə bilməz. Öncə, beynəlxalq və milli hüquq emlərinin qarşılıqlı fəaliyyətinə həsr olunmuş tədqiqatlarda bu əlaqələrin adlandırılmasına dair vahid fikrin olmamasına qət yetirmək lazımdır. Elmi ədəbiyyatda «nisbət» və «qarşılıqlı fəaliyyət» anlayışları istifadə olunur. Bununla yanaşı, rnəlxalq və dövlətdaxili hüququn «nisbəti» nöqteyi- nəzərindən monistik və dualistik nəzəriyyələr nəzərdən keçirilir. Nəzəri zakirələrin üzərində ətraflı dayanmadan qeyd edək ki, ekstradisiya ilə əlaqədar məsələlərin öyrənilməsi məqsədləri üçün rşılıqlı fəaliyyət» daha əsaslandırılmış kateqoriya kimi görünür. Beynəlxalq və dövlətdaxili hüququn verilmə institutuna nasibətinin məzmununa hüquq yaradıcılığı və hüquq tətbiqi kontekstində baxmaq lazımdır. Beynəlxalq və milli hüququn niyyətinin bir normativ sistemin digərinə təsiri deyil, hər hansı bir hüquq sisteminin normalarının reallaşdırılmasının digər emin köməyi ilə təmin edilməsindən çıxış edən elmi mövqe obyektiv görünür [2].

Ekstradisiya institutu milli hüquq sisteminin beynəlxalq hüquqla qarşılıqlı fəaliyyətinin aktuallığının əsaslı nümunəsidir. nkret ölkənin ərazisində cinayətin törədilməsi faktı həmin dövlətin yurisdiksiyasını və onun hüquq-mühafizə orqanlarının ahiyyətlərini müəyyən edir. Qlobal proseslər şəraitində transmilli cinayətkarlıqla mübarizənin səmərəliliyi hüquq-mühafizə anlarının imkanlarının dövlətlərin sərhədləri ilə məhdudlaşması ilə bağlı azalır və cinayətkar qruplaşmaların üzvləri onların dudlarını tanımır. Müvafiq müqavilə olmadıqda, dövlət cinayətin törədilməsində təqsirləndirilən və ya cəzaya məhkum olunan sləri ekstradisiya etmək öhdəliyindən azad olunur. Müxtəlif dövlətlərin hüquq-mühafizə orqanlarının beynəlxalq əkdaşlığının verilmə haqqında dövlətlərarası müqavilələr əsasında genişlənməsi müasir dünyada cinayətkarlığın artım amikasının azalmasına xidmət edəcəkdir.

Eyni zamanda dövlətlər, beynəlxalq hüququn suveren subyektləri kimi, əldə olunan razılaşmalara münasibətdə öz
vqelərini dəyişə bilərlər. Buna görə də cinayətkarların verilməsini tənzimləyən milli hüququn beynəlxalq normalarla qarşılıqlı
liyyəti məsələsi nəzərdən keçirildiyi zaman beynəlxalq hüququn və BMT-nin nizamnaməsinə riayət edilməsi xüsusi
miyyət kəsb edir. Belə ki, Rusiya Federasiyasının xarici siyasət konsepsiyasında [3] milli maraqların müdafıəsinə yönələn
s xarici siyasi fəaliyyət sırasında beynəlxalq problemlərin həllində kollektiv əsaslara, beynəlxalq qanun və ən əsası BMT
amnaməsinin müddəalarının aliliyinə əsaslanan ədalətli və demokratik beynəlxalq sistemin təsdiqi məqsəd kimi
tərilmişdir.

Bu məsələnin xüsusi nəzəri və praktiki əhəmiyyəti Rusiya Konstitusiyasının 4-cü hissəsinin 15-ci səhifəsində öz əksini
mış və beynəlxalq hüququn ümumi prinsiplərinin, normalarının, müqavilələrinin Rusiya Federasiyasının hüquq sisteminə
il edilməsi təsbit olunmuşdur. RF-nın Konstitusiyasına uyğun olaraq, «cinayətin törədilməsində təqsirləndirilən şəxslərin
ilməsi, həmçinin məhkumların digər dövlətlərdə cəzalarının çəkilməsi üçün verilməsi RF-nin federal qanununa və ya
nəlxalq müqavilələrinə əsaslanır (2-ci hissə. 63-cü səh.)» [4]. Digər dövlətlərin milli hüquqi sistemlərində olduğu kimi,
siya qanunvericiliyində də qarşılıqlı şərtlər daxilində konkret dövlətlərlə şəxslərin verilməsi qaydaları təsbit olunmuşdur (səh.
RF-nin Cinayət-Prosessual Məcəlləsi).

Cinayətkarlığın artması və onun beynəlmiləlləşməsi şəraitində beynəlxalq hüquq əməkdaşlığı sahəsində «*pacta sunt
vannda*» beynəlxalq prinsipinə riayət edilməsinin vacibliyi artmaqdadır. Elmi doktrinada verilmə üzrə dövlətlərin
dəliklərinin icrası məsələlərinə baxıldığı zaman tədqiqatçılar tez-tez, beynəlxalq hüquq nəzəriyyəsində ən çox müzakirə
nan dövlətlərin suverenliyi probleminə toxunur. Bu qarşılıqlı əlaqə beynəlxalq sənədlərdə də öz əksini tapmışdır. Məsələn,
IT-nin Baş Assambleyasının 2000-Cİ il tarixli 55/25 nömrəli qətnaməsi ilə qəbul olunmuş Transmilli mütəşəkkil
ayətkarlığa qarşı Konvensiyasında iştirakçı dövlətin digər dövlətin daxili yurisdiksiyasına və səlahiyyətlərinə aid ərazisində
uqi funksiyalarını həyata keçirməsi hüququ ilə təmin olunmamasına dair müddəa təsbit olunmuşdur [5].

Dövlətlərin suverenliyi anlayışına və məzmununa dair müxtəlif konseptual yanaşmalar üzərində ətraflı dayanmadan qeyd
k ki, «suverenlik, dövlətin keyfıyyəti kimi, yalnız dövlətin mövcudluğu məsələsinə - onun hüquq subyektliyinə, «suveren
uqlar» - dövlətin hüquqları isə məhz onun suverenitetinin mövcudluğu ilə yaranmış hüquq subyektliyinə aiddir» səpkisində
n nəzər nöqtəsi əsaslandırılmış görünür [6].

Cinayətkarlığın yayılmasının qarşısının alınması sahəsində beynəlxalq müqavilə bağlamış dövlət öz hüquqi qabiliyyəti və
eren hüququ çərçivəsində fəaliyyət göstərir və özünün müqavilə azadlığına dair hüququnu realizə edir.

Cinayətin törədilməsində təqsirləndirilən və ya məhkum edilmiş şəxslərin verilməsi qaydasına aid olan müddəalar
vlətlərin ekstradisiya etmək öhdəliklərini müəyyən edən və onların milli-hüquqi implementasiyasını tələb edən birtərəfli və ya
tərəfli beynəlxalq hüquq sənədlərində təsbit olunur. Dövlətlərin tətbiq etdiyi beynəlxalq sazişlərin imzalanması zamanı
d-şərt irəli sürmək imkanı, ekstradisiya haqqında sorğulara baxılması zamanı dövlətlərin öz diskresion imkanlarının
işləndirilməsi və təcrübədə verilməsindən imtina halları əməkdaşlığın səmərəliliyini əhəmiyyətli dərəcədə azaldır. Dövlətlər
vədə olan qanunvericiliyə öz beynəlxalq öhdəliklərinin icrası üçün müvafiq normativ aktlar, dəyişikliklər və ya əlavələr
əlidirlər. Belə ki, iki ölkənin hüquqi aktlarındakı fərqlər cəza müddətinin azalmasına səbəb ola bilər.

Beynəlxalq müqavilələrin icrası ilə bağlı problemlərin həllində müxtəlif dövlətlərin qanunvericilik bazalarının vahid
maya salınması mühüm əhəmiyyət kəsb edir. Avropa Konvensiyası (13 dekabr 1957-ci il) iştirakçılar arasında bərabərliyin
ə olunması, əsas məqsəd kimi qeyd etmişdir [7]. Konvensiyanın fəaliyyət sahəsindən siyasi, hərbi və maliyyə cinayətləri
sna edilir və vermәni müşayiət edən sənədləşmə proseduru, şəxslərin daşınması üzrə xərclərin bölüşdürülməsi qaydaları və
ər müddəalar müəyyən edilir. Qeyd etmək lazımdır ki, Avropa dövlətlərinin inteqrasiya proseslərində ekstradisiyanın hüquqi
zimlənməsinə əsaslı şəkildə xüsusi diqqət ayrılmaqdadır. Avropa İttifaqının başlıca məqsədləri sırasında (Maastrix, 7 fevral
2-ci il, Lissabon müqaviləsi redaksiyasında) cinayətkarlığın qarşısının alınması və bu hallarla mübarizə göstərilmişdir [8].

Ekstradisiya sahəsində əməkdaşlığa dair ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə əsas məsələ kimi cinayət işləri
ə hüquqi yardımın göstərilməsi çıxış edir. Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçıları tərəfindən Mülki, ailə və cinayət
ri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya imzalanmış (22 yanvar 1993-cü il), onun məzmununda
ilmə haqqında normalara geniş yer ayrılmış, cinayət təqibinin aparılması və cəzanın icrası üçün verilmə nəzərdə tutulmuşdur)

Ekstradisiya məsələləri ayrı-ayrı cinayət növlərinin qarşısının alınması üzrə beynəlxalq əməkdaşlığın tənzimlənməsinə
ələn müqavilələrə də daxil edilir. Misal kimi dövlətlərin beynəlxalq terrorçuluğun qarşısının alınması üzrə səylərinin
qələndirilməsinə həsr olunmuş beynəlxalq konvensiyaları göstərmək olar. Bu təhlükənin kəskinləşərək, həqiqətən də, qlobal
omenə çevrilməsi onunla bağlıdır ki, müasir dünyada terrorçuluq fəaliyyəti dövlət sərhədləri ilə bağlı olmayan, transmilli
vilmiş şəbəkə xarakteri alır. BMT çərçivəsində hər birinin tənzimlənmə predmeti olan terrorçuluğa qarşı bir çox universal
nvensiyalar qəbul edilmişdir. Qeyd edilən məsələlər üzrə beynəlxalq əməkdaşlıqda xüsusi nəzəri və praktiki aktuallıq kəsb
n problem «Ya ver, ya məhkum et» prinsipinin tətbiqi ilə bağlıdır. İlk dəfə bu haqda latın dilində Quqo Qrotsiyin «Müharibə

sülh hüququ haqda» məşhur kitabında danışılaraq - «Bir dövlət öz ərazisində yaşayan cinayətkarı ya digər dövlətin tələbi ilə əlandırmalı, ya da müvafiq dövlətə bu işi həvalə etməlidir» kimi söylənilmişdir [10].

«Ya ver, ya məhkum et» prinsipinin həyata keçirilməsi təcrübədə cinayətkarın ədalətli şəkildə məhkum olunmasını və həli şəxslərin cinayət məsuliyyətinin ədalətliyinə təminat verərək, dövlətlərin müştərək fəaliyyətlərini gücləndirir. Bu nsipin dövlətlərin beynəlxalq terrorçuluq üzrə əməkdaşlıq məsələlərinə həsr olunmuş beynəlxalq hüquq aktlarına daxil lməsi, dövlətlərin verilmə üzrə praktiki öhdəliyinin reallaşmasında xüsusi əhəmiyyət kəsb edərək, cəzanın labüdlüyü qsədini güdür və təqibin siyasi xarakterini istisna edir. Məsələn, «Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə ıqında» beynəlxalq konvensiyanın (BMT Baş Assambleyası tərəfindən 54/109 nömrəli qətnamə ilə 9 dekabr 1999-cu il xdə qəbul edilib) 6-cı maddəsində müəyyən edilmişdir ki, «Hər bir iştirakçı dövlət bu Konvensiyanın qüvvəsinin şamil ldiyi cinayət əməllərinə siyasi, fəlsəfı, ideoloji, irqi, etnik, dini və digər analoji səciyyəli hər hansı mülahizəyə görə heç bir da haqq qazandırılmamasını təmin etməkdən ötrü zəruri ola biləcək tədbirləri, o cümlədən müvafıq hallarda daxili ıunvericilik sahəsində tədbirlər görür».

Göstərilən beynəlxalq sənədin mətnində nəzərdə tutulmuşdur ki, yurisdiksiyanın müəyyən edilməsindən sonra iştirakçı ı dövlət öz daxili qanunvericiliyinə uyğun olaraq cinayət təqibi və ya verilmə məqsədilə müvaflq şəxsin iştirakının təmin lməsi üzrə lazımi tədbirlər görür.

Dövlətlər arasında verilmə sahəsində ikitərəfli saziş mövcud olmadığı təqdirdə cinayətlərin konkret növləri ilə mübarizəyə əlmiş beynəlxalq müqavilələr ekstradisiya üçün hüquqi əsas kimi hesab oluna bilər. Birləşmiş Millətlər Təşkilatının rupsiyaya qarşı Konvensiyası (BMT-nin Baş Assambleyyası tərəflndən 31 oktyabr 2003- cü il tarixdə qəbul edilmişdir) ilmə üzrə beynəlxalq əməkdaşlığa dair xüsusi bölməni özündə əks etdirir. Həmin bölmədə müəyyən edilmişdir ki, stradisiyanı müqavilənin olması ilə şərtləndirən iştirakçı dövlət ekstradisiyaya dair müqaviləsi olmayan başqa iştirakçı vlətdən ekstradisiya ilə bağlı sorğu alırsa, o bu Konvensiyanı bu maddənin tətbiq olunduğu istənilən hüquqpozma ilə bağlı tradisiya üçün hüquqi əsas kimi qəbul edə bilər» (44 cü maddə, IV fəsil).

Cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın verilmə institutunun tətbiqinin hüquqi çərcivəsinin müəyyən edə məsinə baxmayaraq, qeyd etmək lazımdır ki, ekstradisiyanın qüvvədə olan beynəlxalq hüquq sistemi müasir dünyada yeni növ ayətlərin, xüsusilə də qanunsuz gəlirlərin yuyulması, insan və orqan alveri, kibercinayətkarlıq və s. cinayətlərin dinamik ildə yayılması reallıqlarından geri qalır.

Diqqətəlayiq bir məsələ də ölüm cəzasının tətbiqi məsələlərinə dair müxtəlif dövlətlərin cinayət yurisdiksiyasındakı abətin olmasıdır. Məsələn, bir sıra ölkələrdə qəbul olunmuş qanunvericilik aktlarına uyğun olaraq ekstradisiyanı tələb edən ədə cinayətkarlığın olduğu ölkədən fərqli, daha ciddi məsuliyyət növü nəzərdə tutularsa, dövlət həmin cinayətkarları məməlidir. Beləliklə, cinayətkar ölüm cəzası tətbiq etməyən ölkə tərəfındən ölüm cəzasını ləğv etməmiş ölkəyə verilə bilməz. mçinin törədilən cinayətə görə cinayət məsuliyyətinə cəlb olunma müddətinin bitməsi verilmədən imtina üçün əsasdır. qabətin yaranması halları obyektivdir, çünki onları iki və daha çox dövlətin yuridiksiyası çərçivəsində məsuliyyətə cəlb nması üzrə real zərurətlə şərtləndirilir. Ekstradisiya məsələləri bir şəxsin ekstradisiyasına dair sorğunun bir neçə dövlət əflndən eyni vaxtda göndərilməsi baş verən hər bir halda meydana çıxır.

Cinayətkarların verilməsi məsəslərində dövlətlər arasında münasibətlərin tənzimlənməsinə həsr olunmuş beynəlxalq ıuq sənədlərinin təhlili onu deməyə əsas verir ki, ekstradisiya institutunun müasir şəraitdə cinayətkarlıqla mübarizə sahəsində k bir alət kimi formalaşmışdır. Beynəlxalq hüquq çərçivəsində işlənmiş ümumi hüquqi yanaşmalar dövlətlər arasında cinayət əsində əməkdaşlığın və hüquqi yardımın inkişafında xüsusi rola malikdir. Eyni zamanda ekstradisiya institutunun ayət-hüquqi məzmununda ya mövcud olmayan, ya da beynəlxalq sazişlərdə tam əksini tapmamış işlək mexanizmlər xüsusi miyyət kəsb edir. Şəxslərin verilməsi qaydasının, ekstradisiya haqqında qərarların qəbul edilməsi üzrə müvafıq dövlət anlarının səlahiyyətlərinin məhz dövlətdaxili qanunvericilik aktlarında müəyyən edildiyini nəzərə alaraq, dövlətlər tərəfindən ɪnəlxalq öhdəliklərin yerinə yetirilməsinə görə öz məsuliyyətinin dərk edilməsi vacib şərt kimi çıxış edir.

Ekstradisiya institutunun nəzəri və praktiki problemləri transmilli cinayətkarlığın yayılmasının yeni şərtlərinə nasibətdə dövlətlər arasında əməkdaşlığa kompleks yanaşmanı tələb edir. Bununla əlaqədar gələcəkdə ekstradisiyanın ktrinal əsaslarının işlənməsi, beynəlxalq məhkəmə təcrübəsinin öyrənilməsi, müxtəlif dövlətlərin qanunvericiliyində və ional birləşmələrdə ekstradisiyanın hüquqi tənzimlənməsinin müqayisəli təhlilinin aparılması zəruridir.

## Ədəbiyyat:


1. Avropa İttifaqı haqqında müqavilə. (Maastrixt, 7 fevral 1992-ci il, Lissabon Müqaviləsinin 2007-ci il tarixli redaksiyasında) http://base.consultant.ru/cons/cgi/online.cgi?req=doc; base=INT;n=43211
2. Ekstradisiya haqqında Avropa Konvensiyası, 13 dekabr 1957-ci il. hUp://base.consultant.ru/cons/cgi/onlinc.cgi?req=doc;base=LAW;n=121346/дата обращения 7.10.2013
3. Zimnenko B.L. RF Hüquq sistemi və Beynəlxalq hüquq. Ümumi bölmə: Mühazirə kursu, - Rusiya Ədliyyə Akademiyası;

Statut, 2010.
4. Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Konvensiya (Minsk, 22 yanvar 1993-cü il.) http://base.consultant.ru/cons/cgi/online.cgi?req=doc;base=LAW;n=5942/müraciət tarixi 7.10 2013
5. Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı BMT Konvensiyası, BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş 15 noyabr 2000-ci il tarixli 55/25 nömrəli qətnaməsi, http://www.un.org/ru/ documents/decl_conv/conventions/orgcrime.shtml
6. RE Konstitusiyası, http://www.garant.ru/doc/constitution/ data obrahenie 7.10.2013
7. RF Xarici siyasət Konsepsiyası, RF Prezidentinin Fərmanı 12 fevral 2013-cü il, 303-18-02- 2013., http://www.mid.ru/bdomp/ns-osndoc.nsf/e2f289bea62097f9c325787a0034c255/c32577ca0017434944257bl60051bf7f
8. Beynəlxalq cinayət hüquqi sənədlərdə, Dərs vəsaiti: 2 t. T.I Tərt. R.M.Valeyev, İ.A. Tarxanov, A.R. Kayumova. - II yenilənmiş nəşr. - M.: Statut, 2010
9. RF Xarici İşlər Nazirliyinin Aktual Beynəlxalq Problemlər İnstitutunun (ABPİ) Beynəlxalq hüquq və beynəlxalq təhlükəsizlik Mərkəzinin təşkil etdiyi dəyirmi masanın stenoqramı.7 oktyabr 2009-cu il. http://rudocs.exdat.com/docs/index-173042.html7page / müraciət tarixi oktyabr 2013 il.
10. Çemiçenko S.V. Dövlət suverenliyini bölürükmü? Avrasiya Hüquq Jurnalı № 12 (31) 2010

**Açar sözlər:** *ekstradisiya institutu, beynəlxalq hüquq, transmilli cinayətkarlıq, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquq və milli hüquq normalarının nisbəti, cinayətkarlığa qarşı mübarizə, siyasi cinayət*
**Ключевые слова**: *институт экстрадиции, международное право, транснациональная преступность, сотрудничество стран, соотношение международного права и национальных правовых норм, борьба с преступностью, политическое преступление*
**Key words:** *extradition institute, international law, transnational criminality, inter-state cooperation, relations of international law and national legal norms, fight against criminality, political crime*

**Хикмет Нагдалиев**
**Аспирант кафедры Права Дипломатической Академии**
**Министерства Иностранных Дел Российской Федерации,**
**Член Правления Азербайджанской Молодежной Организации России,**
**Магистр по Европейскому праву Вестминстерского Университета (Лондон, Великобритания)**

**Институт экстрадиции: теоретические и практические аспекты международно-правового сотрудничества стран**

**Резюме**

Статья посвящена одной из актуальных проблем международно-правового сотрудничества стран - институту традиции лиц обвиняемых в совершении преступления, либо уже осужденных. Автор прослеживает теоретические и одологические аспекты взаимосвязи международного права и внутригосударственных правовых актов в области традиции преступников в контексте общего доктринального подхода к международному и национальному праву.

**Hikmat Naghdaliyev**
**Diplomatic Academy of Ministry of Foreign Affairs of Russian Federation,**
**Department of Law postgraduate student,**
**Member of Azerbaijan Youth Organization board in Russia,**
**Master in European Rights of Westminster University (London, Great Britain)**

**Extradition Institute: Theoretical and Practical Aspects Of Countries' Cooperation in International Law**

**Summary**

The article is about the interstate cooperation considering problems concemed criminals.
The author considers theoretical and methodological aspects of the intemational law and interstate normative acts in the text of general doctrinal approach.